# Ağcabədi Muğam Mərkəzi







Ağcabədi şəhər Ü. Hacıbəyli adına Qarabağ Muğam Mərkəzi 2009-cu ildə istifadəyə verilib. Mərkəzdə 2 şöbə – xanəndəlik və xalq çalğı alətləri (burada tar alətindən dərs keçirilir) şöbəsi, 2 yay və qış konsert zalı fəaliyyət göstərir. Burada klassik muğam ənənələri davam etdirilərək, şagirdlərin bədii estetik zövqü formalaşdırılır. Mərkəz müxtəlif yönlu konsertlər hazırlayır. 2021-22 tədris ili ərzində 2-ci vətən müharibəsinin Şəhidlərinin ailələri, qazilər və onların ailələri üçün konsert hazırlayıb, çıxışlar edirlər. Bununla yanaşı Mərkəzin müəllimləri şəhid ailələrini ziyarət edir, eyni zamanda hərbi hissələrdə konsert verirlər. Avaz 3 Televiziya uşaq muğam müsabiqəsində 2 şagird (Ağayeva Laləzar, Tanrıverdiyev Cavidan), 7-ci Televiziya Muğam müsabiqəsində isə Mahmudova Arzu, 8-ci Televiziya Muğam müsabiqəsində isə Cabbarova Nərgiz iştirak edib.

Hal-hazırda Qarabağ Muğam Mərkəzinin direktoru Azərbaycan Milli Konservatoriyasının məzunu Tural Niftaliyevdir.

**Fidan NƏSİROVA**